# Əhali keyfiyyətli tibbi xidmətlə təmin edilir

## *Bunun təməlində ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı dayanır*

**Azərbaycanda uğura aparılan siyasi-iqtisadi kurs bütün sahələrin dinamik inkişafını təmin etmişdir. Bu inkişaf həyatımızın hər bir sahəsində olduğu kimi, ölkə səhiyyəsində də özünü qabarıq şəkildə göstərir. Təməli dahi öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyasına uyğun olaraq, bu gün bütün sahələrdə genişmiqyaslı islahatlar davam etdirilir, ölkəmiz dünya birliyinə inteqrasiya olunur. Bu gün yüksək inkişafa nail olan sahələrdən biri də Azərbaycan səhiyyəsidir. Ulu öndərimizin ölkəmizə rəhbərliyi dövründə səhiyyənin maddi-texniki imkanları genişləndirildi, qanunvericilik bazası möhkəmləndirildi. “Əhalinin sağlamlığının qorunması haqqında”, “Əczaçılıq fəaliyyəti”, “İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin yayılmasının qarşısının alınması haqqında” və digər qanunlar qəbul olundu.**

Təməli ulu öndərimiz tərəfindən qoyulmuş səhiyyə islahatları, yeniləşmə və müasirləşmə Heydər Əliyev siyasi-iqtisadi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yüksək əzm və qətiyyətlə, uğurla davam etdirilir. Prezidenti İlham Əliyevin gərgin məqsədyönlü fəaliyyəti bütün sahələrlə bərabər, səhiyyə sektorunun da modernləşməsinə və dünya standartları səviyyəsinə çatdırılmasına imkan vermişdir. Son illər ölkə səhiyyəsi öz texniki təchizatı və imkanlarına görə bu sahədə inkişaf etmiş ölkələrdən geri qalmır, bəzi hallarda onları qabaqlayır. Ölkə başçısı insanların sağlamlığının qorunmasını ən vacib məsələ kimi qarşıya qoyaraq bu sahəyə daha çox diqqət və qayğı göstərir. Onun tapşırıqlarına əsasən həm paytaxtımız Bakıda, həm də bölgələrimizdə ən müasir tələblərə cavab verən xəstəxanalar tikilir, ən müasir avadanlıqlarla təchiz edilərək əhalinin istifadəsinə verilir. Təmirə ehtiyacı olan tibb ocaqları isə əsaslı şəkildə yenidən qurulur. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə demişdir: “Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar, görülən işlər dünya səviyyəsində gedir. Hətta deyə bilərəm ki, biz artıq Azərbaycan standartlarından da danışa bilərik”.

Qeyd etmək lazımdır ki, son illər tibb ocaqlarının dünyada mövcud olan ən müasir aparatlarla təchiz edilməsinin nəticəsidir ki, əvvəllər müalicəsi mümkün olmayan, ən çətin cərrahi əməliyyatlar artıq ölkəmizdə, yüksək ixtisaslı, peşəkar həkimlər tərəfindən uğurla həyata keçirilir, insanlarımız öz sağlamlığına qovuşur. Səhiyyə sahəsində ölkəmizdə bu uğurların əldə olunmasında səhiyyə naziri Oktay Şirəliyevin də xidmətlərini vurğulamaq lazımdır. Bu gün ən müasir tələblər səviyyəsində təmir olunmuş və yenidən qurulmuş rəhbərlik etdiyim Mirqasımov adına Respublika Klinik Xəstəxanasında onun şəxsi köməkliyi və diqqəti əsasında yeniləşdirilmişdir.

Respublika Klinik Xəstəxanasının kollektivi də bu gün dövlətimizin səhiyyə sahəsinə olan diqqət və qayğının nəticəsi olaraq xəstəxanamızda yaradılmış iş şəraitindən istifadə edərək həkimlərimiz xəstəxanaya müraciət edən hər bir vətəndaşa xüsusi qayğı ilə yanaşır, keyfiyyətli tibbi xidmət göstərir. Bunun üçün qeyd edildiyi kimi, hər cür müasir texniki avadanlıqlar xəstəxanamızda vardır. Əhalinin tam şəkildə müayinəsini aparmaq üçün xəstəxana rəqəmsal Maqnit rezonans və kompüter tomoqraf və rentgen aparatı, ultrasəs aparatı, süni tənəffüs aparatı və digər avadanlıqlarla təmin olunmuşdur. Xəstəxana 655 çarpayılıqdır. I korpusda 19 müalicə şöbəsi fəaliyyət göstərir ki, bunlardan sinir xəstəlikləri, qastrentologiya, endokrinologiya, kardiologiya, hamiləliyin patologiyası, nevrologiya və s. II korpusda 2 cərrahiyyə şöbəsi, BBQ xəstəlikləri şöbəsi, urologiya, hemotologiya, göz, üz-çənə cərrahiyyəsi və s. xəstəxananın yardımçı şöbəsində isə şüa-diaqnostika, laboratoriya, müalicə, bədən tərbiyəsi və fizioterapiya, qanköçürmə işləri həyata keçirilir. Bununla bərabər, Dövlət Proqramına əsasən dağınıq skleroz, hemotoloji xəstəliklərin müayinə və müalicəsi, xəstələrin dərmanlarla pulsuz təminatı da, xəstəxanada təmin edilir. Ötən 2016-cı ildə xəstəxanaya 22371 nəfər daxil olmuş, 22273 nəfər xəstə çıxmışdır. Ötən 2016-cı ildə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi üçün 92 adda yeni avadanlıqlar alınmışdır. Bunlardan süni tənəffüs cihazı tam avtomatik idarəetmə, termoqrafi ağ-qara çap qurğusu USB, əlil arabası, monofunksional çarpayı, dializ aparatı və s. Bu tibbi avadanlıqlar Səhiyyə Nazirliyinin xətti ilə əvəzsiz olaraq xəstəxanaya verilmişdir.

Mirqasımov adına Respublika Klinik Xəstəxanasında mərkəzləşdirilmiş yeməkxana fəaliyyət göstərir. Xəstələrə verilən isti yeməklərin keyfiyyəti ən yüksək səviyyədədir. Nazirliyin təşəbbüsü əsasında bizim tərəfimizdən 15 xəstəxana isti və yüksək keyfiyyətli yeməklə gündə 3 dəfə təmin olunurlar. Əvvəlki illərə nisbətən xəstəxananın ərzaq və dərman ləvazimatları ilə təminatı xeyli dərəcədə yaxşılaşmışdır. Bütün bu işlər səhiyyə naziri Oktay Şirəliyevin xəstəxanamıza diqqəti sayəsində mümkün olmuşdur. Qeyd edim ki, hörmətli nazir həm təmir zamanı, həm də təmirdən sonra dəfələrlə xəstəxanada olmuş, xəstələrə göstərilən tibbi xidmətin keyfiyyəti ilə maraqlanmış, öz tapşırıq və tövsiyələrini vermişdir.

Vurğulayım ki, ötən 2016-cı ildə də xəstəxanada hər il mütəmadi olaraq ulu öndərin ad günü, Novruz və Qurban bayramlarında aztəminatlı ailələrə köməklik üçün pulsuz aksiyalar həyata keçirilir. Bu aksiyalarda ən peşəkar həkim və cərrahlar iştirak edirlər. Onu da qeyd edim ki, xəstəxanada əhalinin keyfiyyətli tibbi müalicə alması üçün 1535 nəfər işçi çalışır. Onlardan 389-u həkim, 63-ü rezident, 572-si isə orta tibb işçisidir. Həkimlərdən 3 nəfəri professor, 3 nəfəri tibb elmləri doktoru, 5 nəfər həkim tibb elmləri üzrə fəlsəfə doktorudur.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın inkişafı naminə bütün sahədə gördükləri məqsədyönlü işlər, qazanılan uğurlar ölkəmizin vətəndaşları tərəfindən çox yüksək qiymətləndirilir. Bu yaxınlarda dövlətimiz Mehriban xanım Əliyevanın çoxşaxəli, səmərəli fəaliyyətini nəzərə alaraq və ona etibar edərək onu Azərbaycan Respublikasının Birinci vitse-prezidenti postuna layiq gördü. Azərbaycan Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanın bu yüksək dövlət vəzifəsinə təyinatı ilə bağlı Təhlükəsizlik Şurasının iclasında qeyd etmişdir ki, Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fonda rəhbərliyindən ötən 13 il ərzində bir çox önəmli layihələr, proqramlar həyata keçirilmişdir.

Üç mindən artıq məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir. Heydər Əliyev Fondunun dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən aztəminatlı vətəndaşlara imkan daxilində öz dəstəyini versin. Cənab Prezident demişdir: “Bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir”.

Son illər Azərbaycanda ən inkişaf etmiş sahələrdən biri ölkənin səhiyyə sektorudur. Respublikamızdakı davamlı sosial-iqtisadi inkişaf, rəqabətədavamlı iqtisadiyyatın formalaşması bu sahədə qazanılan möhtəşəm uğurların qazanılmasına imkan vermişdir. Müasir dünya standartları səviyyəsində tikilib istifadəyə verilən istər dövlət, istərsə də özəl tibb müəssisələrinin öz daxili tərtibatı ilə də, özünəməxsusluğu ilə də seçilir. Hazırda ölkəmizdə səhiyyə sahəsi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub ki, burada Birinci vitse-prezident Mehriban xanımın əməyi çox böyükdür. Bu sahəyə olan xüsusi diqqət və qayğının nəticəsidir ki, 600-dən çox xəstəxana, tibb obyekti əsaslı təmir olunub, yenidən tikilib. Xidmətin səviyyəsi beynəlxalq standartlara uyğunlaşdırılıb. Bunu Beynəlxalq qurumlar da xüsusilə qeyd edirlər. Dünya Səhiyyə Təşkilatı bu sahədə ölkəmizdə görülən işlərə yüksək qiymət vermişdir. Azərbaycanda insanların ömrünün uzunluğunun artması, uşaq və ana ölümünün azalması bu sahədə qazanılan uğurların əsas göstəricisidir.

Bu gün təqdirəlayiq haldır ki, yenidən tikilən və ya əsaslı təmir olunmuş səhiyyə ocaqlarının istifadəyə verilməsi ilə bağlı keçirilən tədbirlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva şəxsən iştirak edir, səhiyyə müəssisələrinin kollektivi ilə görüşür, öz tapşırıq və tövsiyələrini verirlər. Bu günlərdə Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində yeni “Ürək Mərkəzi”nin açılışında da iştirak etmiş, müəssisənin kollektivini təbrik etmişlər. Azərbaycan Prezidenti İlham Əliyev tibb ocağının işçiləri ilə görüşündə qeyd etmişdir: “Səhiyyə sahəsinin inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir. Çünki bu sahəyə ayrılan vəsait dövlətin siyasətini, niyyətini ifadə edir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və insanların sağlamlığı sosial sahədə prioritet məsələlərdən biridir. Bilirsiniz ki, artıq neçə ildir kütləvi müayinədən keçmə kampaniyası aparılır. Keçən il bütün bölgələrdə 5 milyon insan pulsuz müayinə olunub. Bu il də 5 milyon insan pulsuz müayinədən keçəcək”.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva yüksək dövlət postuna təyin olunması ilə əlaqədar millət vəkili kimi fəaliyyətini dayandırmışdır. Mehriban xanım Əliyeva bununla bağlı Milli Məclisdəki çıxışında səhiyyə sahəsində həyata keçirilən işlər barədə qeyd etmişdir: “Səhiyyə sahəsi rəhbərlik etdiyim Heydər Əliyev Fondunun 2005-ci ildən həyata keçirməyə başladığı “Talassemiyasız həyat naminə” proqramı tez bir zamanda geniş vüsət aldı. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikasının Qanunu Milli Məclis tərəfindən qəbul edildi. Fondun təşəbbüsü ilə Bakıda inşa edilmiş Talassemiya Mərkəzi regionda sümük iliyinin köçürülməsini mümkün edən ən müasir avadanlıqla təchiz edilmiş yeganə tibb müəssisəsidir. Ümumiyyətlə, ölkəmizdə irsi qan xəstəliklərinin yayılması məni narahat edir. Azərbaycanda sağlam ailənin formalaşması bu istiqamətdə risklərin azalması məqsədilə mən 2014-cü ildə nikaha daxil olmaq istəyən şəxslərin məcburi tibbi müayinədən keçməsi təşəbbüsü ilə çıxış etdim. Həmkarlarımızla ətraflı müzakirədən sonra Ailə Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi haqqında qanun qəbul olundu”.

Kollektivimiz səhiyyə sahəsində ölkədə yaradılmış inkişaf mühitindən yararlanaraq bundan sonra da əhaliyə tibbi xidmətin keyfiyyətini daha da yüksəldəcək, ölkə səhiyyəsinin tərəqqisinə öz töhfəsini verəcəkdir.



**Telman İBADOV,**
**Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi.**





